DOI: https://doi.org/10.30546/3006-2772.2002.1038

# İslam ekologiyası perspektivindən Azərbaycanda ətraf mühitin qorunması: ekoteoloji potensialın təhlili

***i.f.d., dos. Mübariz Camalov***
Azərbaycan İlahiyyat İnstitutunun Tədrisin
təşkili və təlim texnologiyaları üzrə prorektoru
Bakı, Azərbaycan
mubarizcamalov@ait.edu.az
https://orcid.org/0009-0005-6222-2527

Daxilolma tarixi: 13.04.2026
Nəşrə təsdiq tarixi: 27.05.2026

## Xülasə

Müasir dövrdə ekoloji böhran yalnız texnoloji və idarəetmə problemləri ilə məhdudlaşmır, eyni zamanda, insan–təbiət münasibətlərinin ontoloji və etik əsaslarını yenidən düşünməyi tələb edir. Antropogen təsirlərin intensivləşməsi nəticəsində yaranan iqlim dəyişikliyi, su ehtiyatlarının azalması və ekosistemlərin deqradasiyası mövcud inkişaf modellərinin məhdudiyyətlərini üzə çıxarır. Bu baxımdan, ekoloji problemlərin həlli yalnız texniki vasitələrlə deyil, həm də dəyəryönlü və normativ çərçivələrin yenidənqurulması ilə əlaqələndirilir. Bu məqalədə Azərbaycanda müşahidə olunan su qıtlığı, iqlim dəyişikliyi və Xəzər dənizinin səviyyəsinin enməsi kimi ekoloji problemlər İslam ekologiyasının əsas prinsipləri çərçivəsində təhlil edilməyə çalışılır. Tədqiqatda “tövhid, mizan, xilafət və əmanət” kimi teoloji anlayışların ekoloji şüurun formalaşmasındakı rolu konseptual səviyyədə araşdırılır və bu prinsiplərin insanın təbiətlə münasibətini normativ çərçivəyə saldığı göstərilir. Bununla yanaşı, qeyd olunur ki, bu anlayışların klassik dini mətnlərdə dolayı şəkildə mövcud olmasına baxmayaraq, onların müasir ekoloji diskursa sistemli inteqrasiyası hələ kifayət qədər inkişaf etməmişdir. Məqalənin əsas tezislərindən biri Azərbaycan cəmiyyətində dini-mənəvi irslə praktik ekoloji davranış arasında mövcud olan uyğunsuzluqdur. Bu vəziyyət “diskursiv sükut” anlayışı ilə izah olunur; yəni dini diskursda ekoloji məsuliyyətin sistemli şəkildə ifadə olunmaması nəticəsində bu sahə ictimai şüurda periferik qalır. Bununla belə, bu yanaşmanın empirik əsaslandırılması üçün əlavə keyfiyyətli və kəmiyyətyönlü tədqiqatlara ehtiyac olduğu vurğulanır. Araşdırma göstərir ki, dini təlimlərdə ekoloji etikanın

zəif təmsil olunması təbiətin "ilahi ayə" kimi qavranılmasını məhdudlaşdırır, resurslardan utilitar istifadəyə zəmin yaradır. Araşdırmada ekoloji davranışın yalnız dini faktorlarla izah edilməsinin reduksionist olduğu, iqtisadi, institusional və sosial amillərin də bu prosesdə mühüm rol oynadığı irəli sürülür. Bu səbəbdən də kompleks və çoxsəviyyəli yanaşma zəruri hesab edilir. Məqalədə ekofiqh modullarının dini təhsilə inteqrasiyası, dini institutların ekoloji maarifləndirmədə rolunun artırılması və yaşıl dini məkanların təşviqi kimi təkliflərdən bəhs olunur.

***Açar sözlər:*** *İslam hüququ, İslam ekologiyası, Azərbaycan, ətraf mühitin qorunması, mizan, xilafət.*

*Jurnalımızda dərc olunan məqalələrin müəllif hüquqları müəlliflərə məxsusdur və onlar CC-BY-NC lisenziyası ilə hər kəsə açıq şəkildə dərc olunur.*

# Environmental Protection in Azerbaijan from the Perspective of Islamic Ecology: An Analysis of Ecotheological Potential

***Assoc. Prof. Mubariz Jamalov***
Vice Rector on Academic Affairs
and Educational Technologies of the
Azerbaijan Institute of Theology
Baku, Azerbaijan
mubarizcamalov@ait.edu.az
https://orcid.org/0009-0005-6222-2527

Date of submission: 13.04.2026
Date of acceptance: 27.05.2026

## Abstract

In the contemporary era, the ecological crisis is not limited to technological and managerial issues but also necessitates a reconsideration of the ontological and ethical foundations of the human–nature relationship. This article examines environmental challenges in Azerbaijan—particularly water scarcity, climate change, and the decline in the Caspian Sea level—through the framework of the fundamental principles of Islamic ecology. The study conceptually analyzes the role of key theological notions such as tawhid, mizan, khilafah, and amanah in shaping ecological consciousness, demonstrating that these principles provide a normative framework for regulating human interaction with nature. One of the central arguments of the article is the discrepancy between the rich religious-moral heritage and actual ecological behaviour in Azerbaijani society. This condition is explained through the concept of “discursive silence”, whereby ecological responsibility is not systematically articulated within religious discourse and thus remains peripheral in public consciousness. However, the study also acknowledges the need for further empirical validation of this conceptual approach. The findings suggest that the limited presence of ecological ethics in religious teachings constrains the perception of nature as a divine “sign” and fosters a utilitarian approach to resource use. Nevertheless, the article cautions against a reductionist interpretation that attributes ecological behaviour solely to religious factors. It proposes integrating “eco-fiqh” modules into religious education and enhancing the role of religious

institutions in environmental awareness. In conclusion, the study argues that a spiritually grounded paradigm can complement technical measures and contribute to the development of sustainable ecological behaviour.

***Keywords:*** *Islamic law, Islamic ecology, Azerbaijan, Environmental protection, Mizan, Khilafah*

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

# Охрана окружающей среды в Азербайджане в контексте исламской экологии: анализ экотеологического потенциала

***д.ф. по теологии, доц. Мубариз Джамалов***
Проректор по организации учебного
процесса и технологиям обучения
в Азербайджанском институте теологии,
Баку, Азербайджан
mubarizcamalov@ait.edu.az
https://orcid.org/0009-0005-6222-2527

Дата подачи статьи в редакцию: 13.04.2026
Дата подтверждения статьи к публикации: 27.05.2026

## Резюме

В современную эпоху экологический кризис не ограничивается лишь технологическими и управленческими проблемами, но также требует переосмысления онтологических и этических оснований взаимоотношений человека и природы. Изменение климата, дефицит водных ресурсов и деградация экосистем, являющиеся следствием усиления антропогенного воздействия, выявляют ограниченность существующих моделей развития. В связи с этим решение экологических проблем связано не только с техническими средствами, но и с перестройкой ценностно-ориентированных и нормативных рамок. В данной статье предпринимается попытка проанализировать экологические проблемы, наблюдаемые в Азербайджане, такие как дефицит воды, изменение климата и понижение уровня Каспийского моря, в рамках фундаментальных принципов исламской экологии. Исследование на концептуальном уровне рассматривает роль таких теологических понятий, как «таухид», «мизан», «халифат» и «аманат», в формировании экологического сознания и показывает, что эти принципы определяют отношения человечества с природой в рамках нормативной системы. Кроме того, отмечается, что, несмотря на неявное присутствие этих концепций в классических религиозных текстах, их систематическая интеграция в современный экологический дискурс еще не получила достаточного развития. Одним из ключевых тезисов статьи является наличие несоответствия между богатым религиозно-нравственным наследием и практическим экологическим поведе-

нием в азербайджанском обществе. Данная ситуация объясняется через концепт «дискурсивного молчания», при котором экологическая ответственность не получает системного выражения в религиозном дискурсе и, как следствие, остается на периферии общественного сознания. Вместе с тем отмечается необходимость дополнительного эмпирического обоснования данного подхода. Исследование показывает, что слабая представленность экологической этики в религиозных учениях ограничивает восприятие природы как «божественного знамения» и способствует утилитарному использованию ресурсов. В исследовании утверждается, что объяснение экологического поведения исключительно религиозными факторами является редукционистским, поскольку в этом процессе значительную роль играют также экономические, институциональные и социальные факторы. Поэтому считается необходимым применять комплексный и многоуровневый подход. В статье предлагаются такие меры, как интеграция модулей «экофикха» в религиозное образование и усиление роли религиозных институтов в экологическом просвещении и продвижение «зеленых» религиозных пространств.

***Ключевые слова:*** *Исламское право, исламская экология, Азербайджан, охрана окружающей среды, мизан, халифат*

*Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.*

## Giriş

Müasir dövrdə bəşəriyyət qlobal ekoloji böhranla üz-üzədir. Antropogen təsirlər nəticəsində yaranan qlobal istiləşmə, biomüxtəlifliyin azalması və təbii resursların tükənməsi, artıq nəzəri xəbərdarlıq deyil, gündəlik həyatın acı reallığına çevrilmişdir. Bu kontekstdə Azərbaycan Respublikası da istisna təşkil etmir. Ölkə son onilliklərdə su qıtlığı, torpaq deqradasiyası, ətraf mühitin çirklənməsi və Xəzər dənizinin səviyyəsinin enməsi kimi ciddi ekoloji sınaqlarla qarşılaşır. Həmçinin Kür çayının səviyyəsinin azalması və şoranlaşma prosesləri həm kənd təsərrüfatını, həm də ölkənin ümumi ekoloji təhlükəsizliyini təhdid edir. Bu problemlər yalnız texniki və iqtisadi faktorlarla izah oluna bilməz; onların arxasında həm də dəyərlər sistemi, davranış modelləri və insan–təbiət münasibətlərini formalaşdıran dünyagörüşü dayanır. Müasir ekoloji böhranın dərinləşməsi, bu baxımdan, normativ-etik çərçivələrin və xüsusilə dini-mənəvi dəyərlərin rolunun yenidən nəzərdən keçirilməsini zəruri edir. Ekoloji məsuliyyətin formalaşmasında cəmiyyətin mənəvi kodlarını müəyyən edən dini ənənələrin təsiri ayrıca diqqət tələb edir. Azərbaycan əhalisinin böyük əksəriyyətinin mənsub olduğu İslam dini təbiəti qorumaq üçün zəngin bir etik çərçivə təklif edir. Qurani-Kərimdə və hədislərdə əksini tapan mizan (tarazlıq), xilafət (insanın Yer üzündəki məsuliyyəti) və israf qadağası kimi prinsiplər ekoloji şüurun formalaşması üçün mühüm təməllərdir. Mövcud mənzərə isə göstərir ki, bu dini-etik dəyərlər cəmiyyətin real ekoloji davranışında və gündəlik praktikalarında yetərincə təzahür etmir. Dini kimliklə ekoloji məsuliyyət arasında müşahidə olunan bu məsafə elmi tədqiqatın əsasını təşkil edən ziddiyyəti yaradır.

Tədqiqatın elmi yeniliyi İslam ekologiyasının nəzəri prinsipləri ilə müsəlman cəmiyyətindəki praktik davranışlar arasındakı uyğunsuzluğu ənənəvi fərdi yanaşmalardan kənarda təhlil etməsindən ibarətdir. Mövcud ədəbiyyatdan fərqli olaraq, bu araşdırma sözügedən uçurumu yalnız subyektiv amillərlə deyil, həm də dini-institusional müstəvidəki diskursiv sükut faktı üzərindən əsaslandırır. Bu baxımdan, məqalə yerli akademik mühitdə dini qurumların, tədris kurikulumlarının və xütbə mövzularının ekoloji şüur üzərindəki təsirini (və ya bu təsirin yoxluğunu) sistemli şəkildə problemləşdirən ilk tədqiqat xarakteri daşıyır.

**Hipotez.** Tədqiqatda irəli sürülən əsas iddia bundan ibarətdir ki, İslamın nəzəri ekoloji prinsipləri həm ümumbəşəri, həm də lokal kontekstdə mücərrəd inanc səviyyəsində qalmış və praktik ekoloji davranış modelinə çevrilməmişdir. Qeyd etmək lazımdır ki, hazırda İslamın ekoloji təlimləri ilə fərdlərin gündəlik həyat təcrübələri arasındakı bu

uçurumu kəmiyyət göstəriciləri ilə birbaşa sübut edəcək genişmiqyaslı sosioloji araşdırmalar və ya spesifik rəy sorğuları olduqca məhduddur. Bu boşluq problemin mövcud olmadığını deyil, əksinə, tərk edilmiş qaldığını göstərir. Belə ki, ekoloji diskursun dini tədris prosesində və kütləvi dini təbliğat mexanizmlərində kifayət qədər yer almaması İslam ekologiyasının fərdi və ictimai dindarlıq müstəvisində funksional elementə çevrilməsini ləngidir. Dini diskursda ekoloji etikanın kənarda qalması müsəlmanların gündəlik həyatında bu məsələyə yetərincə önəm verilməməsinə səbəb olur. Bu məntiqdən çıxış edərək, məqalə sözügedən uçurumun mövcudluğunu institusional və diskursiv sükut faktına əsaslanaraq qəbul edir və öz nəzəri-praktik iddiasını məhz bu boşluğun üzərində inşa edir.

**Metodologiya və nəzəri çərçivə.** Bu tədqiqat İslam ekologiyasının normativ prinsipləri ilə müasir müsəlman cəmiyyətindəki reallıq arasındakı münasibətləri təhlil etmək üçün kvalitatif analiz və deduktiv yanaşma metoduna əsaslanır. Tədqiqatın metodoloji strukturunu formalaşdırarkən, sadəcə, teoloji anlayışların təsviri ilə kifayətlənməyib, onların sosial davranışa transformasiya imkanlarını ölçən analitik bir model tətbiq edilmişdir. Prosesin ilk mərhələsində İslam ekologiyasının əsas prinsipləri müasir ekoloji böhran kontekstində yenidən şərh edilmişdir. Burada məqsəd sözügedən anlayışların, sadəcə, metafizik mahiyyətini deyil, onların fərd üzərinə qoyduğu konkret etik-sosial öhdəlikləri müəyyənləşdirməkdir. Tədqiqatın mərkəzində dayanan "nəzəriyyə-praktika uçurumu"nu analiz etmək üçün dini prinsiplərin praktik davranışa keçid mexanizmini izləyən üçmərhələli translyasiya modeli təklif olunur. Bu model ekoloji təlimlərin dini bilik səviyyəsində dərki (idrak), bu biliklərin fərdi mənəvi dəyərə çevrilməsi (internalizasiya) və nəticədə, həmin amillərin gündəlik ekoloji davranışda təzahürü üzərində qurulmuşdur.

**Literatur.** İslam ekologiyası sahəsində beynəlxalq miqyasda mühüm tədqiqatlar aparılmışdır. Seyid Hüseyn Nəsr “Man and Nature” əsəri ilə ekoloji böhranın mənəvi köklərini təhlil edən ilk mütəfəkkirlərdən biri olmuşdur. Fazlun Xalid isə “Signs on the Earth” kitabında İslamın ekoloji hüquq və etik prinsiplərini müasir idarəetmə modelləri ilə birləşdirən mühüm tədqiqatlar aparmışdır.

İbrahim Özdəmirin “İslam çevre ahlakında mizan kavramı” əsəri Qurani-Kərimdəki “kosmik tarazlıq və nizam” anlayışını ekoloji etikanın mərkəzinə yerləşdirir. Bundan əlavə, Richard C. Foltzun redaktoru olduğu “Islam and Ecology: A Bestowed Trust” kollektiv əsərində ətraf mühitin ilahi bir “əmanət” statusunu fərqli perspektivlərlə dərinləşdirir.

Eyni zamanda, Mawil Izzi Dien "The Environmental Dimensions of Islam" kitabında İslam hüququndakı klassik normativlərin müasir ekoloji problemlərə tətbiqini araşdırır, İbrahim Abdul-Matin isə “Green Deen” adlı əsəri ilə bu nəzəri prinsipləri gündəlik həyat tərzinə və praktiki fəaliyyətə çevirən yaşıl bir dindarlıq modeli təklif edir. Beləliklə, bu müəlliflər bir tərəfdən, təbiətin tərifini ilahi bir ayə olaraq yenidən təqdim edir, digər tərəfdən, “xilafət” məsuliyyəti çərçivəsində resursların ədalətli idarə olunması üçün vahid mənəvi-ekoloji etika xəritəsi çəkir. Bu məqalə isə İslam ekologiyası ilə Azərbaycanın spesifik postsovet keçmişini və yerli ekoloji problemlərini sintez edərək, ədəbiyyatdakı “lokal tətbiq” boşluğunu doldurur.

Tədqiqat nəzəri etikadan praktik davranışa keçid mərhələsindəki maneələri multidissiplinar (teoloji-sosioloji) baxış bucağından təhlil etməsi ilə fərqlənir. Bu sahədə araşdırmalar genişləndirilərək, gələcəkdə bir neçə istiqamətdə inkişaf etdirilə bilər.

Birincisi, müasir Azərbaycan dindarlarının gündəlik ekoloji vərdişlərini ölçən genişmiqyaslı empirik və sosioloji sorğuların aparılması bu mövzuda daha konkret nəticələr verə bilər.

İkincisi, ölkədəki dini icmaların (məscid və dini təhsil müəssisələrinin) ekoloji maarifləndirmə potensialı və “yaşıl məscid” modellərinin tətbiqi perspektivləri araşdırılmalıdır.

Üçüncüsü, müasir Azərbaycan ilahiyyatçılarının və din xadimlərinin ekoloji məsələlərə dair fətva və rəylərinin analizi aparılaraq, dini diskursun praktik təsiri müəyyən edilə bilər. Nəhayət, İslam ekoloji etikası ilə Azərbaycanın qədim milli-mənəvi adət-ənənələrinin (məsələn, suya, torpağa müqəddəs yanaşma) kəsişmə nöqtələrinin tədqiqi milli ekoloji strategiyanın mənəvi təməllərini gücləndirə bilər.

## 1. Azərbaycanda ekoloji reallıq: problemlər və göstəricilər

Azərbaycanın ekoloji vəziyyəti son onilliklərdə təbiətin daxili transformasiyası, antropogen amillərin intensiv təsiri ilə əhəmiyyətli dərəcədə dəyişmişdir. Elmi-tədqiqatlar göstərir ki, ölkədə su ehtiyatlarının kəskin azalması, iqlim dəyişikliklərinin fəsadları, torpaq deqradasiyası və sənaye çirklənməsi əsas ekoloji çağırışlar kimi ön plana çıxır. Xüsusilə Kür–Araz hövzəsi, Abşeron yarımadası və Xəzər dənizi ətrafı ərazilər ekoloji risklərin ən yüksək olduğu zonalar hesab edilir. Bu problemlər yalnız təbii ekosistemlərə zərər verməklə kifayətlənmir, həm də kənd təsərrüfatına, əhalinin sağlamlıq göstəricilərinə və uzunmüddətli iqtisadi inkişaf strategiyalarına ciddi təhlükə yaradır (Abbasov və b., 2023, 10, 11, 14, 15, 16, 20, 36; Tahirov, Zeynalova, 2021, 107).




Azərbaycandakı mövcud ekoloji vəziyyəti aşağıdakı kimi ifadə etmək mümkündür:

### 1.1. Su qıtlığı

Azərbaycan su ehtiyatlarının məhdudluğu və qeyri-bərabər paylanmasına görə, dünyada su qıtlığı riski daşıyan ölkələr sırasına daxildir. Ölkənin su balansının ən mürəkkəb tərəfi onun transsərhəd çaylardan yüksək dərəcədə asılı olmasıdır; belə ki, daxili su resurslarının, təxminən, 70-75 faizi ölkə hüdudlarından kənarda, əsasən, Kür və Araz çayları vasitəsilə formalaşır. Son illərdə qlobal iqlim dəyişikliyi və suyun qeyri-səmərəli idarə olunması nəticəsində bu hövzədə suyun həcmi kritik səviyyədə azalmışdır. Tədqiqatlar və rəsmi dövlət hesabatları son 20 ildə Kür–Araz hövzəsində su ehtiyatlarının 20–30 faiz civarında azaldığını təsdiqləyir (Məmmədov, Xəlilov, 2006, 252; Abbasov və b., 2023, 11, 28, 36; Ekologiya hesabatı-2025). Bunun əsas səbəbləri yağıntıların miqdarının azalması, orta illik temperaturun yüksəlməsi, yuxarı axın ölkələrində suyun sənaye və kənd təsərrüfatı məqsədləri üçün hədsiz mənimsənilməsi ilə yanaşı, daxili infrastrukturda yaranan itkilərdir. Azərbaycanda ümumi su istehlakının böyük hissəsi – təxminən, 80-85 faizi kənd təsərrüfatının payına düşür; lakin bu sahədə resurslardan istifadə səmərəliliyi ciddi struktur problemlərlə məhdudlaşır (Ekologiya hesabatı-2025).

Mövcud suvarma sistemlərinin əhəmiyyətli hissəsi sovet dövründən qalma olub, texniki cəhətdən köhnəlmişdir və müasir su qənaəti tələblərinə cavab vermir. Xüsusilə açıq və torpaq məcralı kanal şəbəkələrinin

geniş yayılması suyun nəql prosesində yüksək səviyyədə buxarlanma və sızma itkilərinə səbəb olur. Rəsmi statistik məlumatlar nəql zamanı itkilərin, təxminən, 30 faiz olduğunu, lakin təsərrüfatdaxili səmərəsizliklə bu göstəricinin daha da kəskinləşdiyini göstərir. Bu fərqlilik regionlar və suvarma texnologiyaları üzrə dəyişir ki, bu da sahədə daha dəqiq monitorinqlərin aparılmasını zəruri edir (BTR1, 2024).

Problemin yalnız texniki deyil, həm də institusional və davranış yönləri mövcuddur. Su istifadəsinin ölçülməsi və tarifləşdirilməsi mexanizmlərinin zəifliyi fermerlər arasında suyun limitsiz resurs kimi qəbul olunmasına şərait yaradır. Nəticədə, suvarma vaxtının və həcminin elmi əsaslarla planlaşdırılmaması, torpağın real ehtiyacından artıq su verilməsi və qeyri-effektiv suvarma üsullarının davamlı tətbiqi müşahidə olunur. Bu isə yalnız su itkisi ilə məhdudlaşmır, eyni zamanda, torpağın şoranlaşması, məhsuldarlığın azalması və uzunmüddətli aqroekoloji deqradasiya kimi nəticələr doğurur. Digər tərəfdən, müasir suvarma texnologiyalarının (damcı və yağmurlama sistemləri kimi) tətbiq səviyyəsi hələ də məhduddur. Bunun səbəbləri arasında ilkin investisiya xərclərinin yüksəkliyi, texniki bilik çatışmazlığı və dövlət dəstək mexanizmlərinin yetərsizliyi göstərilə bilər. Halbuki beynəlxalq təcrübə göstərir ki, bu texnologiyalar su sərfiyyatını əhəmiyyətli dərəcədə azaldaraq həm məhsuldarlığı artırır, həm də resursların davamlı idarə olunmasına töhfə verir (Abbasov və b., 2023, 5, 6, 12; Məmmədov, Xəlilov, 2006, 397, 418, 488; Tahirov, Zeynalova, 2021, 106; Xəlilov, 2006, 7, 8, 22).

Şirin su ehtiyatlarının əsasını təşkil edən Kür və Araz çaylarının ekoloji vəziyyəti digər mühüm və çoxqatlı problemdir. Transsərhəd hidroloji sistemlər kimi bu çaylar yalnız Azərbaycanın daxilində baş verən proseslərin deyil, eyni zamanda, yuxarı axın ölkələrindəki sənaye, kənd təsərrüfatı və urbanizasiya fəaliyyətlərinin birbaşa təsiri altındadır. Bu səbəbdən onların çirklənməsi lokal deyil, regional idarəetmə boşluqları ilə sıx bağlı olan struktur xarakterli bir məsələ kimi ortaya çıxır. Mövcud tədqiqatlarda qeyd olunduğu kimi, çaylara sənaye tullantıları, aqrokimyəvi maddələr və təmizlənməmiş məişət suları daxil olur (Abbasov və b., 2023, 10, 14, 37).

Ekoloji nəticələr baxımından, çirklənmə çay ekosistemlərinin trofik strukturuna və biomüxtəlifliyə birbaşa təsir göstərir. Ağır metalların və yüksək duzluluğun artması balıq populyasiyalarının azalmasına, bəzi növlərin isə tamamilə yox olmasına gətirə bilər. Bununla yanaşı, çirkliliyin artması su hövzələrində oksigen çatışmazlığı yaradaraq digər su orqanizmləri üçün də əlverişsiz şərait formalaşdırır. Bu proseslər yalnız ekoloji deyil, həm də iqtisadi nəticələr doğurur; balıqçılıq sektorunun

zəifləməsi və kənd təsərrüfatında istifadə olunan suyun keyfiyyətinin aşağı düşməsi buna nümunədir. İnsan sağlamlığı baxımından isə risklər daha kompleksdir. İçməli su mənbələrinin çirklənməsi, xüsusilə ağır metalların (məsələn, qurğuşun, kadmium, civə kimi) uzunmüddətli təsiri ilə əlaqəli xroniki xəstəliklərin yayılma ehtimalını artırır. Bununla belə, "genişmiqyaslı ekoloji-sağlamlıq böhranı" ifadəsinin istifadəsi müəyyən metodoloji ehtiyat tələb edir; çünki belə bir iddianın əsaslandırılması üçün epidemioloji göstəricilərlə su keyfiyyəti arasındakı səbəb-nəticə əlaqəsini sistemli şəkildə göstərən genişmiqyaslı tədqiqatlara ehtiyac vardır. Mövcud məlumatlar problemin ciddi olduğunu göstərsə də, onun miqyasının dəqiq qiymətləndirilməsi üçün daha inteqrativ və uzunmüddətli araşdırmalar tələb olunur (Abbasov və b., 2023, 10, 14, 37; Məmmədov, Xəlilov, 2006, 172-175; Xəlilov, 2006, 14-17, 40).

### 1.2. Qlobal istiləşmənin təsirləri

Azərbaycanın iqlim dəyişikliklərinə qarşı həssaslığı çoxqatlı və struktur xarakter daşıyır. Bu həssaslıq yalnız temperatur artımı ilə məhdudlaşmır, eyni zamanda, hidroloji rejimlərin dəyişməsi, torpaq-ekoloji sistemlərin deqradasiyası və sosial-iqtisadi sahələrdə risklərin artması ilə müşayiət olunur. Coğrafi baxımdan Azərbaycan quraq və yarıquraq iqlim qurşaqlarının, dağlıq ekosistemlərin kəsişməsində yerləşdiyi üçün iqlim dəyişikliklərinin təsirləri burada daha kompleks və qeyri-bərabər şəkildə müşahidə olunur. Qlobal istiləşmə ölkənin ekosistemlərində zəncirvari mənfi reaksiyalara səbəb olur. Belə ki, Azərbaycanda 1991–2023-cü illər ərzində orta illik temperatur normadan 1.42°C artmışdır. Bu artımın yerli fəsadları xüsusilə ağırdır, çünki ölkənin düzənlik və alçaq dağlıq ərazilərində səthi buxarlanma yağıntılardan orta hesabla 2.6 dəfə yüksəkdir. Temperaturun yüksəlməsi buxarlanma prosesini sürətləndirərək onsuz da qıt olan su ehtiyatlarının daha da azalmasına gətirib çıxarır. Respublikanın su resurslarının, təxminən, 70 faizi ölkə xaricində formalaşan tranzit çayların (Kür, Araz və s.) payına düşür. Quraqlıq illərində bu çayların axımı 17-25 km$^3$ həddinə qədər azala bilir ki, bu da suvarma əkinçiliyində ciddi çətinliklər yaradır. Xüsusilə yay aylarında müşahidə olunan anomal istilər eroziya quraqlığına və torpağın rütubət balansının pozulmasına səbəb olur (BTR1, 2024, 35, 242-245; Tahirov, Zeynalova, 2021, 102; Abbasov və b., 2023, 31, 35; Məmmədov və Xəlilov, 2006, 238, 274).

### 1.3. Xəzər dənizində ekoloji gərginlik

Xəzər dənizi qapalı hövzə olduğu üçün onun səviyyəsi birbaşa gələn çay axınları (xüsusilə Volqa və Kür) və dəniz səthindən gedən buxarlanma arasındakı balansdan asılıdır. Ötən əsrin sonunda dəniz səviyyəsinin təxminən 2,5 metr qalxması Azərbaycanın 825 km.-lik sahil zolağına ciddi təsir göstərmiş, 800 kv.km ərazinin su altında qalmasına, minlərlə hektar otlaq və əkin sahəsinin sıradan çıxmasına səbəb olmuşdur. Son onilliklərdə müşahidə olunan qlobal iqlim dəyişikliyi bu balansı yenidən pozmuşdur; belə ki, 1995-ci ildən etibarən dəniz səviyyəsinin kəskin düşmə tendensiyası başlamışdır. Müasir dövlət hesabatları göstərir ki, Volqa çayının sululuğunun azalması və dəniz səthində buxarlanmanın intensivləşməsi nəticəsində Xəzər dənizi hazırda kritik çəkilmə dövrünü yaşayır. Bu dinamik dəyişikliklər sahil zonasındakı infrastrukturun, o cümlədən limanların və 35-dən çox yaşayış məntəqəsinin sosial-iqtisadi həyatı üçün yeni və daha mürəkkəb ekoloji risklər yaradır (Azərbaycan ekoloji proqram, 2003, 61-62; Məmmədov və Xəlilov, 2006, 241, 345; Xəlilov, 2006, 65-66).

Xəzər dənizinin ekoloji taleyi ona tökülən 130-dan çox çaydan, xüsusilə ümumi axımın təxminən 80faiz-ni təmin edən Volqa çayından birbaşa asılıdır (Şahvələd, 2006; BTR1, 2024). Dəniz hövzəsinə hər il milyonlarla kubmetr təmizlənməmiş tullantı suyunun axıdılması və transsərhəd çaylar vasitəsilə gələn kimyəvi yüklər bioloji tarazlığı kəskin şəkildə pozur (Azərbaycan ekoloji proqram, 2003). Xüsusilə tarixi neft hasilatı zonası olan Bakı buxtasında qruntun üst qatlarında neft məhsullarının konsentrasiyası kritik həddə çatmışdır.

Rəsmi monitorinqlər göstərir ki, dənizə hər il minlərlə ton neft məhsulu, fenol və on minlərlə ton müxtəlif duzlar daxil olur ki, bu da dəniz ekosisteminin özünübərpa qabiliyyətini zəiflədir (Ekologiya hesabatı-2025). Son illərdə təmizləyici qurğuların sayının artırılmasına baxmayaraq, həm daxili mənbələr, həm də qonşu ölkələrdən gələn çirklənmə Xəzərin ekoloji təhlükəsizliyi üçün əsas risk amili olaraq qalır (Xəlilov, 2006, 65-67; Abbasov və b., 2023, 14-15; BTR1, 2024, 158, 258).

### 1.4. Çirklənmə və tullantılar

Azərbaycanın sənaye inkişafı, xüsusilə neft-qaz və neft-kimya sektorları ölkədə ekoloji gərginliyin əsas mənbələrindən biridir. Bakı və Sumqayıt şəhərləri iri sənaye mərkəzləri kimi atmosferin ən çox çirkləndiyi ərazilərdir. Bakıda hava kütlələrinin çirklənməsində avtonəqliyyat tullantıları (təxminən, 80 faiz) həlledici rol oynayır. Sumqayıt isə sovet dövründən qalan ağır kimya sənayesi mirası səbəbindən uzun müddət

yüksək çirklənmə zonası hesab edilmişdir; lakin son illərdə sənaye zonalarının modernləşdirilməsi spesifik toksik emissiyaların azalmasına səbəb olmuşdur. Atmosferdəki azot oksidləri və asılı hissəciklər birbaşa tənəffüs yolları xəstəliklərinə (bronxit, astma) və nəqliyyat sıxlığı zamanı yaranan fotokimyəvi dumanlara yol açır. Plastik tullantıların idarə olunması sahəsində müasir infrastrukturun yaradılmasına baxmayaraq, məişət səviyyəsində çeşidləmə və təkrar emal hələ də tam formalaşmamışdır. Tədqiqatlar göstərir ki, plastik materiallar yüz illərlə parçalanmayaraq torpağın strukturunu pozur və Xəzər dənizində nərə balıqları, eləcə də Xəzər suitisi kimi nadir növlərin yaşayış mühitini təhdid edir. Xüsusilə dənizə daxil olan plastik mikrohissəciklər qida zəncirinə inteqrasiya edərək bioloji tarazlığı geri dönülməz şəkildə pisləşdirir. Bu kontekstdə, birdəfəlik plastiklərin istifadəsinə dair qanunvericilikdəki məhdudiyyətlərə baxmayaraq, qlobal istehlak mədəniyyətinin təsiri ilə yaranan plastik asılılığı ekoloji böhranın ən kəskin tərəflərindən biridir (BTR1, 2024, 61, 69, 78, 228, 280; Ekologiya hesabatı-2025, 18, 72, 81; Azərbaycan ekoloji proqram, 2003, 68, 75, 85, 92; Abbasov və b., 2023, 14).

Yuxarıda göstərilən problemlər Azərbaycanın ekoloji vəziyyətinin kompleks və çoxşaxəli olduğunu göstərir. Su qıtlığı, iqlim dəyişiklikləri və çirklənmə bir-biri ilə əlaqəli şəkildə ölkənin davamlı inkişafına mane olur. Bu problemlərin həlli üçün su resurslarının səmərəli idarə olunması, müasir suvarma texnologiyalarının tətbiqi, tullantıların idarə olunmasının təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi vacibdir. Bunlarla yanaşı, İslam ekologiyasının təqdim etdiyi mənəvi və etik prinsiplərdən faydalanmaq cəmiyyətdə təbiətə qarşı məsuliyyət hissini köklü şəkildə gücləndirə bilər. Ekoloji böhranın mənəvi köklərini dərk edərək, təbiəti Yaradanın varlığına işarə edən “ayələr toplusu” kimi görmək, Azərbaycanda ekoloji şüurun yüksəlməsinə, yalnız texniki deyil, həm də mənəvi dəyərlərə əsaslanan davamlı inkişaf modelinin formalaşmasına fundamental töhfə verə bilər.

## 2. İslam ekologiyasının nəzəri əsasları və prinsipləri

İslam ekologiyası müasir dövrün ekoloji böhranını yalnız texnoloji bir çatışmazlıq kimi deyil, bəşəriyyətin keçirdiyi dərin intellektual və mənəvi tənəzzülün nəticəsi kimi də qiymətləndirir. Bu böhranın kökündə müasir insanın həyatın mənəvi ölçüsündən uzaqlaşaraq, təbiəti desakralizasiya (müqəddəslikdən arındırma) etməsi dayanır. Bu sekulyar baxış bucağı təbiəti Yaradandan qopmuş, ruhsuz və yalnız iqtisadi mənfəət üçün istismar ediləcək bir xammal obyektinə çevirmişdir. İslam ekologi-

yası bu materialist yanaşmaya alternativ olaraq, kainatı ilahi bir vəhdət (tövhid) içində görən bütöv bir paradiqma təqdim edir. Bu çərçivədə təbiət, sadəcə, fiziki bir məkan deyil, hər bir cüzü ilə Allahın varlığını, qüdrətini və sifətlərini əks etdirən müqəddəs ayətlər (nişanələr) toplusudur. Quran paradiqmasında təbiət Yaradanın ilahi teofaniyası (təzahürü) kimi qəbul edilir; yəni kainatdakı hər bir bitki, heyvan, dağ və çay, sanki Allahın gözəl üzünü göstərən minlərlə aynadan biridir. Bu müqəddəslik şüuru insan və təbiət arasındakı münasibətləri mənəvi məsuliyyət müstəvisinə daşıyır. Təbiət insana Allah tərəfindən verilmiş müqəddəs bir əmanətdir. İnsan Yer üzünün xəlifəsi olaraq təbiətin sahibi deyil, onun qoruyucusu kimi təyin edilmişdir. Bu mənəvi bağlılıq o deməkdir ki, təbiətə zərər vermək yalnız bioloji bir itki deyil, həm də Allahın qoyduğu ilahi mizana (tarazlığa) qarşı üsyan və Yaradanın ayələrinə hörmətsizlikdir. Beləliklə, İslamın ekoloji baxışı insanı təbiətlə harmoniyada yaşamağa və onu Yaradanın xatirinə sevməyə sövq edir. Bu mənəvi paradiqma müasir cəmiyyəti parçalanmış və mənfəət mərkəzli dünyagörüşündən xilas edərək, təbiəti yenidən müqəddəs bir ibadətgah kimi qavramağı təklif edir. Sadəcə, belə bir baxış bucağı ilə bəşəriyyət ekoloji deqradasiyanın qarşısını ala və təbiətlə olan vəhdətini yenidən bərpa edə bilər (Afifatun, 2025, 183; Bilgin, 2025, 280-281; Whati, 2025, 714-715).

İslam ekologiyası bir neçə fundamental prinsip üzərində qurulmuşdur:




**2.1. Tövhid (ontoloji bütünlük)**

İslam düşüncəsinə görə, kainatın hər bir elementi Yaradanın varlığını və qüdrətini əks etdirən müqəddəs nişanələr – ayələr məcmusu kimi dərk edilir. Allah göyləri, yeri və onların arasındakı bütün varlıqları təsadüfi deyil, müəyyən bir həqiqət və ali məqsəd əsasında yaratmışdır (“Sad”, 38/27–28; “Ənkəbut”, 29/44). Bu ilahi nişanələr yalnız kosmik

müstəvidə deyil, eyni zamanda insanın daxili aləmində də təzahür edir (“Fussilət”, 41:/53). Bu baxışın təbii davamı olaraq, kainatdakı yaradılışın mükəmməl ölçü, nizam və daxili harmoniya – mizan prinsipi üzərində qurulduğu qəbul edilir (“Qəmər”, 54/49; “Hicr”, 15/19). “Rəhman” surəsində (55/7–9) qeyd olunduğu kimi, Allah göyü yüksəltmiş və mizanı müəyyən etmişdir ki, insan bu tarazlığı pozmasın və həddi aşmasın. Məhz bu çərçivədə insanın mövqeyi yer üzünün xəlifəsi — yəni idarəçisi və qoruyucusu kimi müəyyən edilir (“Bəqərə”, 2/30; “Fatir”, 35/39). Beləliklə, təbiət insanın mülkiyyəti kimi deyil, qorunmalı olan müqəddəs bir əmanət kimi təqdim olunur (“Əhzab”, 33/72). Digər tərəfdən, bu ilahi nizamın pozulması İslam ekoloji düşüncəsində “fəsad” anlayışı ilə ifadə edilir və bu pozulmanın əsas səbəbi birbaşa insan fəaliyyəti ilə əlaqələndirilir (“Rum”, 30/41). Bu səbəbdən, islah olunmuş yer üzündə fəsad törətmək (“Əraf”, 7/56) və təbii resurslardan istifadə zamanı israfçılığa yol vermək qəti şəkildə qadağan olunur (“Əraf”, 7/31; “Ənam”, 6/141). Hətta nemətləri israf edənlərin şeytanlarla eyniləşdirilməsi (“İsra”, 17/26–27) bu məsuliyyətin nə qədər ciddi qəbul edildiyini göstərir. Bununla yanaşı, kainatın canlı və mənalı sistem kimi qavranılması bütün varlıqların Allahı özünəməxsus şəkildə təsbih etməsi ideyasında daha da dərinləşir (“İsra”, 17/44; “Cümə”, 62/1). Bu kontekstdə Yer üzündə yaşayan heyvanlar və göydə uçan quşlar da insanlar kimi müstəqil ümmətlər hesab olunur (“Ənam”, 6/38). Beləliklə, təbiətin qorunması yalnız praktiki bir vəzifə deyil, eyni zamanda, kainatdakı ümumi ibadət harmoniyasına hörmətin ifadəsi kimi qiymətləndirilir.

Bu ümumi çərçivə daxilində tövhid prinsipi İslam ekoloji düşüncəsinin mərkəzində dayanaraq, yalnız Allahın mütləq birliyini deyil, həm də bütün varlığın vahid ilahi mənbədən qaynaqlanan ontoloji bütövlüyünü ifadə edir. Bu yanaşmaya görə, təbiət müstəqil və mexanik bir materiya deyil; əksinə, Allahın varlığını və sifətlərini davamlı şəkildə əks etdirən ayətlər sistemidir. Bu baxımdan, tövhid şüuru Allah, insan və təbiət arasındakı münasibəti qarşılıqlı əlaqə və inteqrasiya çərçivəsində izah edir və insanı bu sistemin kənarında deyil, onun ayrılmaz və məsuliyyətli bir hissəsi kimi təqdim edir. Eyni məntiqi xətt davam etdirilərək, tövhid kainatı bir-birindən qopuq hissələrin mexaniki cəmi kimi deyil, eyni ilahi qaynaqdan bəslənən və üzvi şəkildə bir-biri ilə bağlı olan vahid bir sistem kimi xarakterizə edir. Beləliklə, təbiətin hər bir elementi ilahi sənət nümunəsi kimi qəbul olunur və insanın rolu bu vəhdəti qorumaqla məhdudlaşır (Abdul-Matin, 2010, 6-7; Foltz, 2003, 73, 104; Sadiqa, Nadeem, 2022, 1219-1220). Bu yanaşma modern sekulyar düşüncənin təbiəti ruhsuz xammal kimi dəyərləndirən və onu müqəddəs məzmun-

dan uzaqlaşdıran mexanik modelinə qarşı çıxır. Bu çərçivədə, insan ətraf mühiti yalnız iqtisadi resurs kimi deyil, ilahi nemət və mənəvi dəyər daşıyıcısı kimi qəbul etməli, ona qarşı hörmət və məsuliyyətlə yanaşmalıdır.

### 2.2. Mizan

İslam inancına görə, kainat mütləq bir ölçü, nizam və tarazlıq – mizan – üzərində yaradılmasıdır. Bu prinsipə görə, varlıq aləmindəki hər bir ünsür təsadüfi deyil, ilahi bir hikmətlə müəyyən edilmiş daxili harmoniyaya malikdir və bütün varlıqlar bir-biri ilə sıx bağlı olan vahid bir sistemin parçalarıdır. Qurani-Kərimdə bu ontoloji reallıq "Həqiqətən, Biz hər şeyi bir ölçü ilə yaratdıq" ("Qəmər", 54/49) ayəsi ilə ifadə olunur. Buradakı "mizan" anlayışı həm fiziki aləmin qanunauyğunluqlarını, həm də insanın bu ilahi nizama qarşı olan əxlaqi və hüquqi məsuliyyətini simvolizə edir. Allah kainatı yaratdıqdan sonra, onu özbaşına buraxmamış, mizanı qoymuş və insanlara bu tarazlıqda həddi aşmamağı əmr etmişdir: "Göyü yüksəltmiş və tərəzini (mizanı) qoymuşdur. Elə isə tərəzidə (mizanı pozub) həddi aşmayın!" ("Rəhman", 55/7-8). Bu prinsiplər əsasında formalaşan ekoloji etika insanı təbiətin sahibi deyil, onun qorunmasından məsul olan bir idarəçi (xəlifə) kimi görür. İnsanın təbiətə mənfəət mərkəzli, yanlış və hədsiz müdaxiləsi bu ilahi harmoniyanı zədələyir. Quran bu ekoloji deqradasiyanın səbəbini birbaşa insan faktoru ilə əlaqələndirir: "İnsanların öz əlləri ilə etdikləri üzündən quruda və dənizdə fəsad zahir oldu…" ("Rum", 30/41). Ekoloji məsuliyyət sadəcə texniki bir vəzifə deyil, eyni zamanda ilahi əmanətə sadiq qalmağın və Yaradanın varlığını təbiət aynasında seyr etməyin mənəvi formasıdır (Böke, 2021, 56, 64, 66; Kalyoncu, Taş, 2024, 215, 219; Khalid, 2019, 11).

### 2.3. Xilafət

Xilafət insanın təbiətlə münasibətini mülkiyyət deyil, yüksək mənəvi və praktik məsuliyyət müstəvisinə daşıyır. Bu konsepsiyaya görə, insan Allahın Yer üzündəki xəlifəsi və ilahi nizamın qoruyucusudur. Qurani-Kərimdə insanın bu ali statusu: "Sizi yer üzünün xəlifələri edən Odur..." ("Fatir", 35/39) ayəsi ilə bəyan edilir. Bu xilafət statusu insana təbiəti kor-koranə istismar etmək ixtiyarı vermir, əksinə, o, təbiətin sahibi deyil, onun qorunmasından məsul olan bir idarəçi kimi təyin edilmişdir. Bu ali vəzifə insanı Yer üzünü abad etmək və ilahi iradəyə uyğun idarə etmək öhdəliyi ilə yükləyir. Necə ki, digər bir ayədə buyurulur: "O, sizi torpaqdan yaratdı və orada yaşatdı..." ("Hud", 11/61).

İslam mütəfəkkirlərinə görə, bu ayə yaşayış məskənlərinin salınması, ağaclandırma və su kanallarının açılması kimi işlərini möminlər üçün bir vəzifəyə çevirir. İnsan Yer üzünün bir ünsürü olan torpaqdan yaradıldığı üçün onun tərkib hissəsi olduğu dünyanı daha məskən etmək məsuliyyəti daşıyır. Bu çərçivədə təbiət insana müvəqqəti olaraq verilmiş müqəddəs bir əmanətdir. Əmanət şüuru insanı təbiətə qarşı bir mülkiyyətçi kimi deyil, əksinə, resursları gələcək nəsillərin haqqını mənimsəmədən qorumalı olan məsuliyyətli bir kirayəçi kimi davranmağa sövq edir. Bu öhdəliyin ağırlığı və ekoloji məsuliyyətin qaçılmazlığı Quranda belə ifadə olunur: “Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik, onlar onu daşımaqdan qorxub çəkindilər. İnsan isə onu boynuna götürdü...” (“Əhzab”, 33/72). Təfsirçilər vurğulayırlar ki, bu ağır yük insanın təbiətin daxili müvazinətini qorumaq öhdəliyidir; buna xəyanət etmək — yəni təbiəti amansızca istismar etmək və çirkləndirmək – həm bu dünyada ekoloji böhranlara (fasad), həm də axirətdə ağır mənəvi məsuliyyətə yol açır (İzzi Dien, 2000, 21; Khalid, 2019, 84-85; Özdemir, 2006, 179-181).

### 2.4. Mötədillik

Mötədillik həm fərdi, həm də ictimai həyatda ifrat və təfritdən uzaq durmağa, resurslardan istifadə edərkən mütləq şəkildə orta yolu tutmağa sövq edən fundamental bir İslam prinsipidir. İslam düşüncəsində bu orta yol yalnız iqtisadi seçim deyil, həm də ümumi həyat düsturu, "vəsət ümmət" (“Bəqərə”, 2/143) anlayışının təzahürüdür. Qurani-Kərimdə bu prinsip möminlərin xarakterik xüsusiyyəti kimi belə təqdim olunur: “Onlar xərclədikdə nə israfçılıq, nə də xəsislik edərlər; onların xərcləmələri bu ikisinin arasında orta bir yoldur” (“Furqan”, 25/67). Bu orta yol prinsipi ekoloji davamlılıq üçün xüsusi əhəmiyyət kəsb edən israfın qəti qadağan edilməsini nəzərdə tutur. İslam terminologiyasında israf insanın hər hansı bir əməldə, xüsusilə resurs istifadəsində etidal sərhədlərini pozaraq həddi aşmasıdır.

Akademik mənbələrdə vurğulandığı kimi, israf yalnız maddi sərvətlərin ölçüsüz xərclənməsi deyil, həm də təbiətdəki ilahi mizanı (tarazlığı) sarsıdan, ekosistemin bütövlüyünə zərər vuran hər cür ifrat istehlak hərəkətidir. Müasir ekoloji böhranın kökündə dayanan əsas səbəblərdən biri olan aşırı istehlak İslam etikasında təbiətə qarşı törədilmiş bir fəsad kimi qiymətləndirilir. Allahın nemətlərindən istifadə edərkən mənəvi sərhədləri qorumaq barədə xəbərdarlıq kəskindir: “Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevməz!” (“Əraf”, 7/31). Bu ayə istehlak mədəniyyətini, sadəcə, iqtisadi bir məsə-

lə olmaqdan çıxarıb, onu ilahi sevgi və razılıqla birbaşa əlaqəli olan mənəvi öhdəliyə çevirir. Quranda israfçılar, hətta "şeytanların qardaşları" ("İsra", 17/27) kimi xarakterizə olunur ki, bu da israfın Yaradanın bəxş etdiyi nemətlərə qarşı, bir növ, nankorluq (küfrani-nimət) və ilahi nizama üsyan olduğunu göstərir (Ardoğan, 2012, 126-127, 139; Bilgin, 2025, 280; Kayhan, 2006, 150-154; Koçyiğit, 2020, 70-71).

İsrafın əksinə olan iqtisad (qənaət) isə İslamda bu mənəvi xəstəliyin əsas çarəsi və aktiv bir şükür forması kimi təqdim olunur. "İqtisad" sözününün əsl mənası "məqsədə yönəlmək" deməkdir; o, resursları yalnız ehtiyac daxilində və yaradılış qayəsinə uyğun səmərəli idarə etməyi öyrədir. İnsanın ehtiyacları məhdud olsa da, arzu və ehtirasları sonsuzdur; məhz iqtisad prinsipi bu ehtirasları cilovlayaraq təbiətin korlanmasının qarşısını alır (Böke, 2021, 54). Peyğəmbər tərəfindən qoyulan davranış modelləri isə bu mücərrəd prinsipləri praktik ekologiyaya köçürür. Peyğəmbərin axar çay kənarında dəstəmaz alan bir səhabəyə suyun bolluğuna baxmayaraq, onu israf etməməsi barədə etdiyi xəbərdarlıq İslamın təbii resurslara baxışını fundamental şəkildə dəyişir: "Bəli, axan bir çayın kənarında olsan belə israf etmə" (İbn Macə, "Təharət", 48). Bu hədis və ona bağlı təlimlər sübut edir ki, qənaət və resurslara qayğı maddi imkanların azlığı və ya çoxluğu ilə bağlı deyil; bu, bolluq şəraitində belə qorunmalı olan mütləq bir ibadət mədəniyyətidir. Belə bir mötədillik şüuru müasir davamlı inkişaf və yaşıl iqtisadiyyat çağırışları üçün ən güclü mənəvi zəmin yaradaraq, gələcək nəsillərin təbii resurslar üzərindəki haqlarını qorumağı bir dini məsuliyyət halına gətirir.

### 2.5. Bioetika

İslam dininin canlı aləmə baxışı, onları, sadəcə, insan ehtiyaclarını qarşılayan maddi resurslar və ya ruhsuz obyektlər kimi görməkdən uzaq olub, bütün varlıqların Yaradan qarşısında ontoloji dəyərini və müstəqil hüquqlarını tanıyan bütöv bir yanaşmaya əsaslanır. Bu yanaşmaya görə, heyvanlar və bitkilər də insanlar kimi bir ümmət (topluluq) hesab edilir. Qurani-Kərimdə bu universal həqiqət belə bəyan olunur: "Yer üzündə gəzən elə bir heyvan və qanadları ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın..." ("Ənam", 6/38). Bu ayə hər bir canlının Yaradan tərəfindən müəyyən edilmiş öz daxili nizamı, sosial strukturu və mənəvi bağı olduğunu, onların da insanlar kimi Allahın nəzərində dəyər daşıdığını təsdiqləyir. Bütün varlıqlar — göylər, yer, heyvanlar və hətta ağaclar Allahı öz hal dili ilə təsbih (Allahı nöqsan sifətlərdən uzaq tutmaq) edərək kainatın ortaq ibadət ahənginə qoşulurlar ("İsra", 17:44; "Cümə", 62:1). Bu baxış hər bir canlının Allah

tərəfindən verilmiş fitri yaşama hüququna malik olduğunu və onlara qarşı mərhəmətli davranmağın fərdi bir dini öhdəlik olduğunu vurğulayır. Peyğəmbərin "Yer üzündəkilərə mərhəmət edin ki, göydəkilər də sizə mərhəmət etsin" (Tirmizi, "Birr", 16) hədisi bu mərhəmət ekologiyasının əsasını təşkil ünsürlərdən biridir.

İslam hüququnda heyvanlara əziyyət vermək, bitki örtüyünü səbəbsiz yerə məhv etmək təkcə təbiətə deyil, həm də ilahi nizama qarşı törədilmiş bir cinayət və əmanətə xəyanət sayılır. Peyğəmbər haqsız yerə bir sərçəni belə öldürən şəxsin Qiyamət günü Allah qarşısında cavab verəcəyini bildirmişdir. Hətta müharibə kimi fövqəladə vəziyyətlərdə belə, yaş ağacların kəsilməsi, yandırılması və heyvanların (qidalanma ehtiyacı xaricində) öldürülməsi qəti şəkildə qadağan edilmişdir. Peyğəmbərin Məkkə və Mədinə ətrafını **"**hima**"** (qorunan sahə) elan edərək, bitki və heyvanları himayəyə alması tarixdə ilk ekoloji mühafizə zonalarının təməli kimi qiymətləndirilir (Bozyiğit, 14-15; Böke, 2021, 68-69; Ekinci, 2018, 135-136; Foltz, 2003, 144, 149, 209; Foltz, 2006, 20-21, 87). Ekoloji məsuliyyət dünyanın sonu gəlsə belə, mömin üçün davam edən bir vəzifədir. Peyğəmbər məşhur hədisində belə deyir: "Əgər qiyamət qopduqda əlində bir fidan olsa, onu əkə bilirsənsə, mütləq ək" (Əhməd ibn Hənbəl, Müsnəd, III, 184, 191). Bu çağırış göstərir ki, təbiəti qorumaq fəaliyyəti nəticədən asılı olmayan mütləq bir dəyərdir. Həmçinin əkilən hər bir bitkinin digər canlılar üçün qida mənbəyi olması xüsusi vurğulanır: "Bir müsəlman ağac əkər və ya əkin əkərsə, ondan bir insan, bir quş və ya bir heyvan yeyərsə, bu, onun üçün sədəqə sayılar" (Buxari, "Hərs", 1). Bu mənada, ağac əkmək təkcə bioloji deyil, həm də hər bir canlı üçün edilən bir yaxşılıq kimi "sədəqeyi-cariyə" (sonsuz sədəqə) hesab olunur.

### 3. Dini təlimlərlə reallıq arasında boşluq

İslam ekologiyasının təqdim etdiyi mənəvi-etik çərçivə ilə müasir müsəlman cəmiyyətlərinin ekoloji davranışları arasında müşahidə olunan uyğunsuzluq müasir ekoloji böhranın yalnız texniki və ya iqtisadi deyil, həm də dərin sosial-mədəni və intellektual köklərə malik olduğunu göstərir. Bu baxımdan, Qurani-Kərim və hədislər əsasında formalaşmış İslam ekologiyası insan-təbiət münasibətlərini normativ baxımdan tənzimləyən güclü etik sistem yaradır. Reallıq göstərir ki, bu prinsiplər geniş kütlələrin gündəlik davranış modellərinə sistemli şəkildə transformasiya olunmur. Bu ziddiyyətin səbəblərini yalnız fərdi mənəvi zəiflik və ya dini bağlılığın azalması ilə izah etmək reduksionist yanaşma olardı. Əksinə, bu uçurum bilik strukturlarının məhdudluğu, tarixi-siyasi miras,

iqtisadi sistemin prioritetləri, qlobal mədəni transformasiyalar və institusional boşluqların qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks bir proses kimi təhlil olunmalıdır.

### 3.1. Dini bilik və ekoloji şüur

Bu boşluğu dörd fundamental səbəblə əlaqələndirmək mümkündür. Birincisi, dini biliklərin yetərsizliyi nəticəsində cəmiyyətdə din daha çox fərdi ibadətlər və rituallarla məhdudlaşır; ekoloji məsuliyyətin dinin vacib bir hissəsi olduğu, yəni təbiətin "Allahın ayəti" kimi görülməsi kütləvi şüurda lazımi səviyyədə yer almayıb. İkincisi, sovet dövründən qalan təbiəti fəth etmək" ideologiyası və dövlət mülkiyyətinə qarşı məsuliyyətsizlik hissi kimi post-sovet mirası ekoloji mədəniyyətsizliyin köklərini dərində saxlayaraq mənəvi dəyərlərin ekoloji davranışa çevrilməsinə mane olur. Üçüncüsü, sürətli urbanizasiya və iqtisadi inkişaf fonunda iqtisadi maraqların prioriteti ön plana çıxır və maddi qazanc ekoloji davamlılıqdan üstün tutulduğu üçün "israfın haram olması" prinsipi iqtisadi mənfəət qarşısında öz gücünü itirir. Nəhayət, qlobal istehlak mədəniyyəti və qlobal kapitalizmin təlqin etdiyi hədsiz istehlak meylləri yerli dini-mənəvi dəyərləri sıxışdıraraq insanı təbiətdən qoparır və onu sadəcə istifadə ediləcək bir resurs kimi görməyə sövq edir (Nasr, 1990, 4-13; Ekinci, 2018, 131, 137; İzzi Dien, 2000, 130; Muhammad, Fazrian, 2023, 225-226).

Müsəlman cəmiyyətlərində dinin qavrayışı çox vaxt ibadət və ritual praktikalarla məhdudlaşır, sosial və ekoloji məsuliyyət aspektləri isə ikincidərəcəli mövqe tutur. Halbuki İslam kosmologiyasında təbiət yalnız fiziki mühit deyil, ilahi nizamın və hikmətin təcəllası kimi təqdim olunur. Bu baxış təbiətə münasibətdə ontoloji və etik məsuliyyət yaratsa da, bu anlayışların geniş ictimai şüura transformasiyası zəif qalır. Bu vəziyyətin əsas səbəblərindən biri dini təhsil sistemində ekoloji məsələlərin sistemli şəkildə yer almamasıdır. İlahiyyat proqramlarında ekologiyanın ayrıca modul kimi tədris edilməməsi din xadimlərinin bu sahədə konseptual və metodoloji hazırlığını məhdudlaşdırır. Bu məqam müasir akademik ədəbiyyatda da geniş şəkildə təsdiqlənir. Bir sıra tədqiqatlar göstərir ki, İslam dini təhsilində ekoloji etikaya dair biliklər ya fragmentar şəkildə təqdim olunur, ya da ümumiyyətlə, kurikulumdan kənarda qalır (Saedi və b., 2025, 50-52; Bilgin, 2025, 280).

Bu kontekstdə əsas problem yalnız bilik çatışmazlığı deyil, həm də biliklərin transformasiya olunmamasıdır. Yəni dini biliklərin idrak səviyyəsində qalaraq, praktik davranışa çevrilməməsi məsələnin əsas mahiyyətini təşkil edir. Bu məqamda bilik–normativ dəyər–praksis mo-

deli xüsusi dəyər qazanır. Müasir tədqiqatlar da göstərir ki, dini biliklərin ekoloji davranışa təsiri yalnız o zaman effektiv olur ki, bu biliklər fərdin dəyər sisteminə inteqrasiya olunsun və sosial praktikalarla dəstəklənsin. Bu baxımdan, dini biliklərin ekoloji şüura təsirini üç səviyyədə izah etmək mümkündür:

**1. Koqnitiv səviyyə (bilik):** fərd İslamın ekoloji prinsiplərini nəzəri olaraq mənimsəyir. Bu mərhələ isə davranış dəyişikliyi üçün kifayət deyil.

**2. Normativ-aksioloji səviyyə (dəyər):** bu biliklər fərdin etik sisteminə daxil olur və onun “doğru–yanlış” meyarlarını formalaşdırır. Bu mərhələdə din, artıq yalnız informasiya deyil, dəyər sisteminə çevrilir.

**3. Praktik səviyyə (davranış):** Ekoloji məsuliyyət gündəlik həyat praktikasında – istehlak, tullantı idarəçiliyi, su istifadəsi və s. – konkret davranış formalarına çevrilir.

Məhz bu üç mərhələ arasında keçidin zəifliyi müsəlman cəmiyyətlərində ekoloji şüurun formalaşmasını ləngidir. Mohamed (2014) bu prosesi “etik potensialın latent qalması” kimi xarakterizə edir və bildirir ki, dini biliklər sosial institutlar vasitəsilə praktik davranışa çevrilmədikdə onların təsiri məhdud olur. Bundan əlavə, müasir tədqiqatlar dini institutların rolunu xüsusi vurğulayır. Rahman (2022) göstərir ki, məscidlər və dini icmalar əslində ekoloji maarifləndirmə üçün istifadə olunmamış potensial mərkəzlərdir. Bu potensialın reallaşmaması institusional strategiyanın olmaması ilə bağlıdır. Eyni fikir Saniotis (2012) tərəfindən də dəstəklənir; o qeyd edir ki, ekoloji kampaniyaların dini kontekstdə təşkili, xüsusilə gənclər arasında daha effektiv nəticələr verir. Digər tərəfdən, ekoloji şüurun formalaşmasında pedaqoji metodologiya da mühüm rol oynayır. Müasir ekopedaqogika yanaşması dini biliklərin yalnız nəzəri deyil, təcrübə əsaslı öyrədilməsini təklif edir; məsələn: məktəblərdə və dini təhsil müəssisələrində ağacəkmə, tullantıların çeşidlənməsi və su qənaəti kimi fəaliyyətlərin dini motivasiya ilə əlaqələndirilməsi ekoloji davranışın formalaşmasında daha effektiv hesab olunur. Bu yanaşma dini biliklərin yaşanan biliyə çevrilməsini təmin edir. Bununla birlikdə, dini bilik və ekoloji şüur arasındakı əlaqə yalnız təhsil məsələsi deyil, həm də dünyagörüşüdür. Müasir tədqiqatçılar vurğulayırlar ki, ekoloji böhranın əsas səbəbi təbiətin müqəddəslikdən məhrum edilməsi – yəni desakralizasiyadır. Bu baxımdan, dini biliklərin əsas funksiyası yalnız etik qaydalar təqdim etmək deyil, həm də insanın təbiətə baxışını köklü şəkildə dəyişməkdir. Təbiəti resursdan əmanətə çevirən bu ontoloji transformasiya baş vermədikcə, ekoloji şüurun dərinləşməsi məhdud qalacaq. Beləliklə, dini bilik və ekoloji şüur arasındakı əlaqə xətti deyil, çoxsəviyyəli və transformativ xarakter daşıyır.

Problemin mahiyyəti biliklərin olmamasından daha çox, onların institusional, pedaqoji və mədəni mexanizmlər vasitəsilə praktik həyata inteqrasiya olunmamasıdır. Bu səbəbdən, İslam ekologiyasının potensialını reallaşdırmaq üçün dini təhsil sisteminin yenidən qurulması, ekoteoloji yanaşmaların kurikuluma inteqrasiyası və dini institutların aktiv sosial aktyor kimi prosesə cəlb olunması zəruridir (Nasr, 1997, 81-83; Abdul-Matin, 2010, 53, 57; Afifatun, 2025, 183-186; Whati və b., 2025, 714-717).

### 3.2. Sosial-mədəni təsirlər

Azərbaycan kontekstində ekoloji davranışın formalaşmasına təsir edən mühüm struktur amillərdən biri sovet dövründən qalan ideoloji və institusional mirasdır. Sovet modernləşmə modeli təbiəti insanın iqtisadi məqsədləri üçün tam şəkildə səfərbər ediləcək obyekt kimi təqdim edirdi. Təbiəti fəth etmək ideologiyası ekosistemlərin daxili tarazlığını deyil, onların istehsal potensialını prioritetləşdirirdi. Bu yanaşma müstəqillikdən sonra formal olaraq zəifləsə də, davranış və idarəetmə səviyyəsində tam aradan qalxmamışdır. Xüsusilə “kollektiv mülkiyyət” anlayışının mirası kimi formalaşmış resurslara sahibolma məsuliyyətinin diffuziyası fenomeni bu gün də müşahidə olunur. Su, torpaq və meşə kimi resursların müştərək mülkiyyət kimi qavranılması onların qorunmasından çox, nəzarətsiz istifadəsini stimullaşdırır; məsələn: suvarma sistemlərində müşahidə olunan yüksək itkilər yalnız texniki köhnəlmə ilə izah edilə bilməz; bu hal, eyni zamanda, resurslara münasibətdə formalaşmış davranış modelinin nəticəsi kimi də şərh oluna bilər.

Qloballaşma və media təsirləri müsəlman cəmiyyətlərində istehlak davranışlarını köklü şəkildə dəyişdirmişdir. İslamın tövsiyə etdiyi qənaət və mötədillik prinsipləri getdikcə yerini simvolik və statusyönlü istehlaka verir. Bu proses yalnız iqtisadi deyil, həm də mədəni transformasiya kimi baş verir. İstehlakın sosial identiklik forması kimi çıxış etməsi fərdlərin seçimlərini rasional ehtiyacdan daha çox sosial təzyiq və imic amilləri ilə əlaqələndirir. Bu isə israfın yalnız fərdi zəiflik deyil, strukturlaşdırılmış sosial davranış modeli olduğunu göstərir. Bu transformasiyanın konkret təzahürləri gündəlik həyatın müxtəlif sahələrində müşahidə olunur: birdəfəlik plastik məhsulların geniş istifadəsi, yüksək israf səviyyəsinə malik mərasimlər və suyun qeyri-qənaətli istifadəsi buna nümunədir. Bu hallarda ekoloji problemlər texniki məsələdən daha çox mədəni davranış problemi kimi ortaya çıxır (Ardoğan, 2012, 137-139; Bilgin, 2025, 281, 287; Küçük, Ayyıldız, 2020, 427, 430; Soysaldı, 2005, 98, 112).

## 4. Nəticə və təkliflər

### 4.1. Nəticə

Müasir dövrdə bəşəriyyətin üzləşdiyi qlobal ekoloji böhran yalnız texnoloji çatışmazlıq və ya iqtisadi resursların düzgün bölünməməsi problemi deyil, həm də dərin mənəvi və intellektual tənəzzülün təzahürüdür. İslam ekologiyası bu problemi həll etmək üçün insanı təbiətdən ayıran sekulyar yanaşmanı rədd edərək, kainatı ilahi bir vəhdət və nizam içində görən bütöv bir paradiqma təqdim edir ki, burada təbiət sadəcə istismar ediləcək bir resurs deyil, hər bir cüzü ilə Yaradanın varlığına işarə edən müqəddəs nişanələr toplusudur. Bu ekoloji etikanın mərkəzində kainatın müəyyən bir ölçü və tarazlıq – mizan üzərində yaradıldığı inancı dayanır. Quranda buyurulduğu kimi, Allah göyü yüksəltmiş və mizanı qoymuşdur ki, insanlar bu ilahi tərəzidə həddi aşıb tarazlığı pozmasınlar. Tarazlığın pozulması İslam terminologiyasında ekoloji böhranın əsas səbəbi olan fəsad kimi xarakterizə edilir və insanların öz əlləri ilə etdikləri əməllər ucbatından quruda və dənizdə baş verən pozulmalar buna bariz nümunə kimi göstərilir. İnsan bu nizam daxilində Allahın Yer üzündəki xəlifəsi olaraq təyin edilmişdir ki, bu da ona təbiət üzərində mütləq sahiblik deyil, idarəetmə və qoruma məsuliyyəti verir. Təbiət insana müvəqqəti olaraq verilmiş müqəddəs bir əmanətdir və bu əmanətə sadiq qalmaq ilahi nizamın davamlılığına töhfə vermək deməkdir. Əmanətə xəyanət etmək, yəni təbiəti istismar etmək və gələcək nəsillərin haqqını mənimsəmək, ağır mənəvi məsuliyyət doğurur. Resursların qorunmasında israfın qəti qadağan edilməsi ekoloji davamlılıq üçün xüsusi əhəmiyyət kəsb edir; israf yalnız maddi vəsaitin boş yerə xərclənməsi deyil, həm də təbii tarazlığı pozan hər cür ifrat davranışdır. Peyğəmbərin axar çay kənarında belə suyun israf edilməməsi barədə buyuruğu qənaətin resursların bolluğundan asılı olmayan mütləq bir ibadət mədəniyyəti olduğunu sübut edir. Bununla birlikdə, İslam ekologiyası heyvanları da insanlar kimi özünəməxsus bir ümmət hesab edərək onların yaşama hüququna hörmət etməyi mənəvi bir öhdəlik kimi təqdim edir.

Azərbaycan kontekstində bu boşluq yalnız fərdi amillərlə deyil, həm də tarixi, sosial və mədəni faktorlarla şərtlənir. Sovet dövründən miras qalan təbiəti fəth etmək ideologiyası resurslara münasibətdə məsuliyyətin diffuziyası və qlobal istehlak mədəniyyətinin təsiri ekoloji davranışın formalaşmasına mənfi təsir göstərir. Bu səbəbdən, ekoloji problemlər təkcə texniki və iqtisadi deyil, həm də dərin mədəni xarakter daşıyır. Bununla yanaşı, İslam ekologiyası yalnız etik-nəzəri sistem kimi deyil, həm də transformativ sosial mexanizm kimi mühüm potensiala

malikdir. Təbiətin ilahi ayə kimi qavranılması, israfın qadağan olunması və insanın "xəlifə" statusu ekoloji davranışı mənəvi məsuliyyət səviyyəsinə yüksəldir. Bu yanaşma ekoloji problemlərin həllində yalnız inzibati və texnoloji vasitələrlə kifayətlənməyərək, fərdin daxili motivasiyasına və vicdani məsuliyyətinə əsaslanan daha davamlı model formalaşdırmağa imkan verir. İslam ekologiyası bir müsəlman cəmiyyəti kimi Azərbaycanda nəzəri səviyyədə mövcud olsa da, onun praktik və institusional təsiri məhduddur. Dini təhsil sistemində ekoloji mövzuların yetərincə yer almaması, dini institutların bu sahədə passivliyi və ekoloji diskursun ictimai müstəvidə zəifliyi bu vəziyyəti şərtləndirən əsas amillərdir.

## 4.2. Təkliflər

Mövcud ekoloji problemlərin həlli üçün dini sahədə kompleks və sistemli islahatların aparılması, İslam ekologiyasının mənəvi potensialının praktik fəaliyyətə çevrilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdəki təklifləri aşağıdakı kimi təqdim etmək mümkündür:

### Din sahəsi

**İmamlar üçün ekoloji təlim proqramlarının hazırlanması.** Dini liderlər cəmiyyətin mənəvi dəyərlərinin formalaşmasında və gündəlik davranış modellərinin müəyyənləşməsində mərkəzi rol oynayır. İmamların təkcə ilahiyyat bilikləri ilə kifayətlənməyib, həm də müasir ekoloji elmlər, iqlim dəyişikliyinin elmi əsasları və resursların idarə olunması texnologiyaları barədə məlumatlandırılması zəruridir. Dini liderlərin elmi faktlarla dini dəyərləri sintez edərək təqdim etməsi ekoloji məsuliyyəti qanuni məcburiyyətdən çıxarıb imanla əlaqəli bir borc dərəcəsinə yüksəldə bilər. Bu məqsədlə hazırlanan xüsusi təlim modulları din xadimlərinə təbiəti Yaradanın əmanəti kimi təqdim etmək üçün güclü intellektual baza yaradacaq.

**Xütbələrdə ekoloji sistemin təmin edilməsi.** Hazırda cümə xütbələrində ekoloji mövzulara kifayət qədər yer ayrılmaması cəmiyyətin bu sahədəki maarifləndirmə ehtiyacının qarşılanmadığını göstərir. Ekoloji mövzular xütbələrin mütəmadi və sistemli tərkib hissəsinə çevrilməlidir. Xüsusilə mizan konsepti fəsadın haram olması və su israfının mənəvi fəsadları barədə mövzular müntəzəm işlənməlidir. Bu yanaşma dindarların gündəlik həyat tərzində – plastikdən istifadənin azaldılmasından tutun, suyun qənaətlə işlədilməsinə qədər – mənəvi bir məsuliyyət və ibadət şüuru formalaşdıraraq ekoloji davranışın davamlılığını təmin edə bilər.

**Yaşıl məscid konsepsiyasının tətbiqi.** Məscid yalnız ibadət məkanı deyil, həm də İslam həyat tərzinin tətbiq edildiyi nümunəvi mərkəz olmalıdır. Yaşıl məscid konsepsiyası çərçivəsində binaların günəş panelləri ilə təchiz edilməsi enerji səmərəliliyini təmin edərkən, dəstəmaz sularının filtr olunaraq digər sahələrdə (məsələn, həyətyanı sahələrin suvarılması üçün) təkrar istifadəsi İslamın qənaət təliminin ən bariz praktik nümunəsi ola bilər. Bu cür texnoloji həllərin tətbiqi məscidlərin mənəviyyatla yanaşı, ekoloji dayanıqlılıq mərkəzlərinə çevrilməsini, insanların bu nümunəni öz evlərində tətbiq etməyə həvəsləndirilməsini təmin edə bilər.

**İlahiyyat təhsilində islahat və ekofiqhin tədrisi.** Din xadimlərinin yetişdiyi ilahiyyat fakültələrində İslam ekologiyası və ya ekofiqh (ekoloji hüquq) fənlərinin tədris proqramına müstəqil modul kimi daxil edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu islahat təbiəti qorumağı fiqhi baxımdan zəruriyyət (zəruri ehtiyaclar) kateqoriyasına yüksəldəcəkdir. Tələbələrə təbiətin mülkiyyətçisi deyil, onun xəlifəsi olduqları aşılanmalıdır. Belə bir təhsil bazası ilahiyyatçıların ekosid (təbiətin sistemli şəkildə məhv edilməsi və ya ətraf mühitə kütləvi zərər vurulması) hallarını mənəvi bir cinayət kimi qiymətləndirməsinə və cəmiyyəti ekoloji böhrandan çıxarmaq üçün intellektual liderlik etməsinə imkan yarada bilər.

**Dövlət siyasəti**

**Ekoloji strategiyalarda dini-etik istinadın gücləndirilməsi.** Müasir ekoloji böhranın mənəvi köklərini nəzərə alaraq, milli ekoloji proqramlarda və qanunvericilik aktlarında yalnız texniki və inzibati normalarla kifayətlənməmək lazımdır. Strategiyalarda təbiətin müqəddəs bir əmanət olması və kainatdakı ilahi mizanın qorunması prinsiplərinə istinad edilməsi qəbul edilən qaydaların legitimliyini və ictimai məsuliyyətini artırır. İnsanlar təbiəti, sadəcə, istismar ediləcək bir resurs kimi deyil, Yaradanın bir işarəsi (ayəsi) və məsuliyyət daşıdıqları bir əmanət kimi gördükdə, ekoloji qaydalara riayət etmək onlar üçün həm də vicdani bir öhdəliyə çevrilir. Bu mənəvi yanaşma dövlətin ekoloji siyasətinin mənəvi əsaslarını möhkəmləndirə və cəmiyyətdə təbiətə qarşı məsuliyyət şüurunu formalaşdıra bilər.

**Dini qurumların ekoloji layihələrə və qərarvermə mexanizmlərinə cəlb edilməsi.** Ekoloji layihələrin, xüsusilə yaşıllaşdırma kampaniyalarının, su ehtiyatlarının səmərəli idarə olunması və tullantıların azaldılması təşəbbüslərinin uğuru üçün yerli dini icmalarla dövlət qurumları arasında sıx əməkdaşlıq platformaları qurulmalıdır. Dini liderlərin cəmiyyətdəki böyük nüfuzu ekoloji mesajların kütlələrə daha sürətli və

inandırıcı şəkildə çatdırılmasına imkan verir. Dini qurumlar yerli səviyyədə fəal iştirak edərək, məscidləri və dini icma mərkəzlərini ekoloji maarifləndirmə və tətbiq mərkəzlərinə çevirə bilərlər. Bu cür əməkdaşlıq ekoloji problemlərin həllində dövlətin inzibati gücü ilə dinin mənəvi təsir gücünü sintezləşdirərək, daha dayanıqlı nəticələr əldə etməyə xidmət göstərir.

**Məktəblərdə İslam ekologiyası modullarının inteqrasiyası.** Gənc nəslin ekoloji şüurunun formalaşmasında orta məktəb dərsliklərinin rolu həlledicidir. Həyat bilgisi və ya təbiət elmləri fənlərində İslamın ekoloji baxışını əks etdirən xüsusi modulların əlavə edilməsi şagirdlərin təbiətlə münasibətlərini mənəvi dəyərlər müstəvisində qurmasına kömək edər. Şagirdlərə izah olunmalıdır ki, ağac əkmək, heyvanlara mərhəmət göstərmək və suyu israf etməmək yalnız vətəndaşlıq qaydası deyil, həm də Yaradanın nizamını qorumaq üçün yerinə yetirilməli olan müqəddəs bir vəzifədir. Belə bir inteqrasiya olunmuş təhsil modeli gələcək vətəndaşların təbiəti yalnız xammal mənbəyi kimi deyil, hörmət və qayğıya layiq olan canlı bir sistem kimi qavramasını kömək edər.

**Vətəndaş cəmiyyəti**

**QHT-məscid əməkdaşlığı və ortaq platformaların yaradılması.** Ekoloji qeyri-hökumət təşkilatları (QHT) ilə dini icmalar arasında qurulan əməkdaşlıq elmi biliklərlə mənəvi nüfuzun sintezini təmin edir. QHT-lər müasir ekoloji problemlər, iqlim dəyişikliyi və tullantıların idarə olunması üzrə texniki ekspertizaya malik olduqları halda, məscidlər bu məlumatların geniş kütlələrə mənəvi bir vəzifə kimi çatdırılması üçün ən əlverişli məkanlardır. Bu əməkdaşlıq çərçivəsində məscidlərdə müntəzəm maarifləndirmə sessiyaları, ekoloji seminarlar və birgə ağacəkmə kampaniyaları təşkil edilə bilər. Belə bir tərəfdaşlıq ətraf mühitin mühafizəsini, sadəcə, bir aktiv fəaliyyət olmaqdan çıxarıb, imanın təzahürü olan bir sosial məsuliyyətə çevirər.

**Sosial media kampaniyaları və müasir təbliğat metodları.** Müasir dövrdə ekoloji şüurun formalaşmasında sosial medianın təsiri misilsizdir. İslamın ekoloji baxışını müasir dil və vizual alətlərlə izah edən kampaniyalar, xüsusilə gənc nəsil arasında böyük əks-səda doğura bilər. Müxtəlif kampaniyalar çərçivəsində İslamın mötədillik prinsipi təbliğ edilərək, qlobal istehlak mədəniyyətinin yaratdığı israfçılığa qarşı mənəvi sipər yaradıla bilər. Eyni zamanda, plastiksiz ibadət kimi şüarlarla məscidlərdə və dini mərasimlərdə birdəfəlik plastik qablardan istifadənin azaldılmasına çağırışlar edilməli, təbiətin Allahın əmanəti olduğu şüuru hər bir paylaşımla möhkəmləndirilməlidir. Bu kampaniya-

lar mənəvi dəyərləri rəqəmsal dünyanın imkanları ilə birləşdirərək geniş kütlələrdə davranış dəyişikliyi yarada bilər.

**Ekorisalə/elmihalın hazırlanması və gündəlik həyata tətbiqi.** İnsanların gündəlik həyatında ekoloji cəhətdən düzgün davranışı dini qaydalar və etik prinsiplər formasında izah edən ekorisalə/elmihal (ekoloji davranış bələdçisi) hazırlana bilər. Bu vəsaitdə tullantıların çeşidlənməsi, suyun və enerjinin qənaətlə işlədilməsi, heyvanlara qarşı mərhəmətli davranılması kimi məsələlər sadəcə texniki tövsiyə deyil, dini bir məsuliyyət kimi təqdim olunmalıdır; məsələn: tullantıları yerə atmamaq, əmanətə sadiq qalmaq, suyu qorumaq, israfdan qaçmaq kimi fiqhi və əxlaqi çərçivədə izah edilə bilər. Belə bir vəsait hər bir mömin üçün təbiətlə münasibətlərində mənəvi bir yol xəritəsi funksiyasını yerinə yetirərək, ekoloji etikanın ictimai müstəvidə və fərdi səviyyədə kök salmasını təmin edər.

## Ədəbiyyat

Abbasov, R. K., Allahverdiyev, R., Zaynalov, R., Habilov, A., & Aliyeva, R. (Red.). (2023). Azerbaijan National Ecosystem Assessment: Summary for Policymakers. Government of Azerbaijan; RECC Azerbaijan. (Həmçinin: Azərbaycan Milli Ekosistem Qiymətləndirilməsi hesabatı).

Abdul-Matin, I. (2010). Green Deen: What Islam teaches about protecting the planet. Berrett-Koehler Publishers.

Afifatun, S. (2025). The role of Islamic education in building ecological awareness among youth. Journal of Islamic Studies and Education.

Ardoğan, R. (2012). İslam ve çevre teolojisi. Akçağ Yayınları.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanda ətraf mühit: Statistik məcmuə. Bakı.

Bilgin, B. (2025). İslam düşüncesi ve ekoloji: Tevhid, emanet ve denge üzerine bir okuma. Artvin Çoruh Üniversitesi Uluslararası Sosyal Bilimler Dergisi, 11(2), 279-297.

Boran, M. (2022). İslam hukukunda av, avcılık ve bazı güncel problemler (Av ve avcılık etiği). Helal ve Etik Araştırmalar Dergisi, 4(1), 18-33.

Bozyiğit, R. (ts). İslâm ahlak öğretisinde çevre bilinci. Siirt Üniversitesi İlahiyat Fakültesi Dergisi, 3(2), 15-23.

Cankılıç, İ. (2020). Kur'ân-ı Ker'im'de israf kavramı ve inançla ilişkisi. Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, 29(2), 599-628.

Ekinci, E. (2018). İslam dini'nin çevreye ve çevre sorunlarına bakış açısı. Erzincan Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 11(1), 129-140.

Eren, M. (2014). Çevrenin korunması hususunda Hz. Peygamber'in sit alanı uygulamaları. Gaziantep: Çevre ve Ahlak Sempozyumu.

Foltz, R. C. (2003). Islam and ecology: A bestowed trust. Harvard University Press.

Foltz, R. C. (2005). Environmentalism in the Muslim world. Nova Science Publishers.

Foltz, R. C. (2006). Animals in Islamic tradition and Muslim cultures. Oneworld Publications.

Böke, G. E. (2021). İslam'da israf ve çevre ilişkisi. Academic Platform Journal of Halal Lifestyle.

İzzi Dien, M. (2000). The environmental dimensions of Islam. Lutterworth Press.

Kalyoncu, H., & Taş, K. (2024). Küresel ısınma ve iklim değişikliği ile mücadelede İslam öğretisinin işlevselliği üzerine bir değerlendirme. Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, (50), 207-226.

Kayhan, V. (2006). Kur'an'a göre israf ve iktisat. Dinbilimleri Akademik Araştırma Dergisi, 6(2), 149-195.

Khalid, F. M. (2019). Signs on the Earth: Islam, modernity and the climate crisis. Kube Publishing.

Khoirurrijal, M. F., Ala, A., & Huda, H. (2025). Integrating religious and environmental education in eco-pesantren. Environmental Education Research.

Koçyiğit, Y. (2020). Dünyada değişen çevre algısı ve İslam'ın çevrecilik anlayışı. İlahiyat, 4, 63-76.

Məmmədov, Q., Xəlilov, M. (2006). Ekologiya, ətraf mühit və insan. Bakı: Elm.

Mohamed, N. (2014). Islamic education, eco-ethics and community. Studies in Philosophy and Education, 33, 315–331.

Muhammad, A. A., Fazrian, M. I. (2023). The encounter between the West and Islam in ecology: Naess's ecology and Al-Qusyairi's Sufism. Epistemé, 18(2), 219-240.

Nasr, S. H. (1990). Man and nature: The spiritual crisis of modern man. London: Unwin Paperbacks.

Öztürk K. H., Ayyıldız, H. (2020). Dindarlık algısının müslüman tüketici davranışı üzerine etkisinde gönüllü sadeliğin aracılık rolü. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi, 19, 426-448.

Rahman, A. K. (2022). Islamic environmental ethics: A model for shaping Muslim attitudes. University of Wales Trinity Saint David.

Sadiqa, U., Nadeem, Q. (2022). Deep ecology: A contemporary response of Islam and Hinduism for sustaining man-nature relationship. Pakistan Journal of Humanities and Social Sciences, 10(4), 1211-1220.

Saedi, S. (2025). Sustainability and environmental practices in Islamic education. Jurnal Pemikiran dan Pendidikan Islam, 18(2), 172-187.

Saniotis, A. (2012). Muslims and ecology: Fostering Islamic environmental ethics. Contemporary Islam, 6(2), 155–171.

Soysaldı, M. (2005). Kur’an’a göre çalışmanın önemi (və ya The notion of the extravagance in the Qur’an). Fırat Üniversitesi İlahiyat Fakültesi Dergisi.

Tahirov, R., Zeynalova, M. (2021). Azərbaycanın su resurslarının mühafizəsi. Metafizika jurnalı, 4(4), 101-109.

Wati, S., Kuriaya, K., Akhyar, M. (2025). Integrating ecopedagogy into Islamic religious education. Dirasah Journal, 8(2), 713-723.

Xəlilov, Ş. B. (2006). Azərbaycanın ekocoğrafi problemləri. Bakı: Nafta-Press.